

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 29 sentyabr 2021-ci il №76 (2584) https://mod.gov.az Qiyməti 30 qəpik


# Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə ehtiram əlaməti olaraq Bakıda yürüş keçirilib

## Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yürüşdə iştirak ediblər




Vətən müharibəsi zamanı Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş əsgər və zabitlərimizə, qətlə yetirilən mülki vətəndaşlarımıza və itkin düşmüş soydaşlarımıza ehtiram əlaməti olaraq sentyabrın 27-də - Anım Günündə Bakı şəhərində yürüş təşkil edilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, gənc kursantlar və hərbçilər Vətən müharibəsi zamanı Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan igidlərimiz, itkin düşən hərbçilərimiz və Ermənistan dövləti tərəfindən törədilən insanlıq əleyhinə və müharibə cinayətləri nəticəsində qətlə yetirilən mülki əhalimizin hər birinin fotolarından ibarət plakatlarla yürüş edərək xalqın birliyinin daimi və sarsılmaz olduğunu, Vətənə sevgi, şəhidlərimizə ehtiramın əbədiliyini bir daha nümayiş etdiriblər.

Dövlətimizin başçısı yürüşdə şəhid Adil Asəm oğlu İbrahimlinin fotosu əks olunmuş plakatı aparırdı. Müdafiə Nazirliyinin hərbi hissəsinin zabiti, baş leytenant Adil İbrahimli 2020-ci il noyabrın 7-də Xocavənd rayonu ərazisində gedən hərbi əməliyyatlar zamanı həlak olub. O, Şuşa istiqamətində aparılmış döyüş əməliyyatlarında xüsusi tapşırıqların yerinə yetirilməsində şəxsi igidlik göstərib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Adil İbrahimlini "Vətən Müharibəsi Qəhrəmanı" adı, "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edib.

Birinci xanım Mehriban Əliyeva isə yürüşdə şəhid Narin Teymur qızı Xalıqovanın fotosu əks olunmuş plakatla irəliləyirdi. Narin Xalıqova 2019-cu il dekabrın 17-də Gəncə şəhərində doğulub. Ailənin tək övladı olan Narin 5 illik həsrətin sonunda dünyaya göz açmışdı. Narin Xalıqova 2020-ci il oktyabrın 17-də Ermənistan silahlı qüvvələrinin Gəncəni raket atəşinə tutması nəticəsində anası Sevil Əsgərova, həmçinin yaxın qohumları Suliddin Əsgərov, Bəxtiyar Əsgərov, Nigar Əsgərova ilə birlikdə həlak olub. Nazirlər Kabinetinin qərarına əsasən, Narin Teymur qızı Xalıqovaya şəhid statusu verilib.

**(Ardı 4-cü səhifədə)**

# Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin Anım Günü ilə əlaqədar xalqa müraciəti

*Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Anım Günü ilə əlaqədar xalqa müraciət edib. AZƏRTAC müraciəti təqdim edir.*



## Prezident İlham Əliyevin müraciəti

- Əziz həmvətənlər.

Düz bir il bundan əvvəl Ermənistan Azərbaycana qarşı hərbi təxribat törədərək bizim döyüş mövqelərimizi və yaşayış məntəqələrimizi atəşə tutmuşdur. Bu namərd atəş nəticəsində ilk saatlarda mülki şəxslər, hərbçilər həlak olmuşdur. Mənim əmrimlə Azərbaycan Ordusu bu qanlı cinayətə cavab olaraq genişmiqyaslı əks-hücum əməliyyatına başlamış və 44 gün davam edən İkinci Qarabağ müharibəsində tam Qələbə qazanmışdır. Keçən il dekabrın 2-də mənim Sərəncamımla sentyabrın 27-si Azərbaycanda Anım Günü kimi təsis edilmişdir. İkinci Qarabağ müharibəsində həlak olmuş qəhrəman şəhidlərimizin əziz xatirəsi qarşısında bu gün bir daha baş əyir, onlara Allahdan rəhmət diləyirik. Biz şəhidlərimizi öz qəlbimizdə əbədi saxlayacağıq. Eyni zamanda, bu gün Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin təməli qoyulacaq. Bu da keçən ilin dekabrında mənim Sərəncamımla həll olunan məsələdir. Bakıda, şəhərimizin ən gözəl yerlərinin birində İkinci Qarabağ müharibəsinin qəhrəmanlarının şərəfinə möhtəşəm abidə ucaldılacaqdır. Onu da bildirməliyəm ki, bu gün saat 12-də bütün ölkə üzrə bir dəqiqəlik sükut elan ediləcəkdir.

İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu Qələbə tarixdə əbədi qalacaq. Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu məhv edərək öz ərazi bütövlüyünü bərpa etdi. Mən dəfələrlə demişdim ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq. Dəfələrlə demişdim ki, nəyin bahasına olursa-olsun biz öz torpaqlarımızı geri qaytaracağıq. Dəfələrlə demişdim ki, düşmən öz xoşu ilə torpaqlarımızdan çıxmasa, biz onu torpaqlarımızdan qovacağıq və belə də oldu. Biz Birinci Qarabağ müharibəsindəki məğlubiyyətlə barışmadıq, güc topladıq, bütün gücləri səfərbər etdik, ordumuzu gücləndirdik, ölkə iqtisadiyyatını gücləndirdik, ölkəmizin nüfuzunu qaldırdıq və öz tarixi missiyamızı şərəflə yerinə yetirdik. Biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik. Biz milli ləyaqətimizi bərpa etdik. Bu gün Azərbaycan xalqı müzəffər xalq kimi yaşayır. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır. Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq.

Ermənistan döyüş meydanında məğlub olarkən yenə də ən çirkin əməllərə əl atdı, mülki şəxslərə qarşı hərbi təxribat törətdi. Yüzdən çox mülki şəxs erməni faşizminin qurbanı oldu. Bizim şəhər və kəndlərimiz müntəzəm olaraq daim atəş altında idi. Ermənistan qadağan olunmuş silahlardan istifadə edirdi, ağ fosforlu bombalardan istifadə edirdi, ballistik raketlərdən istifadə edirdi. Ancaq heç nə bizi dayandıra bilməzdi. Azərbaycan xalqı əzm, iradə, cəsarət göstərərək bütün bu təxribatlara sinə gərdi. Bizi heç kim və heç nə dayandıra bilməzdi. Müharibə dövründə dəfələrlə Azərbaycan xalqına müraciət edərək deyirdim ki, heç kim və heç nə bizi dayandırmayacaq. Biz ədalət savaşına çıxmışıq. Biz ləyaqət savaşına çıxmışıq. Biz milli qürur savaşına çıxmışıq. Biz müqəddəs savaşa çıxmışıq.

Müharibə dövründə hamımız bir şüarla yaşayırdıq - öldü var, döndü yoxdur. Azərbaycan xalqı Azərbaycan Ordusunun arxasında möhkəm dayanaraq ordumuza əlavə güc verirdi. Günahsız insanların həlak olması, şəhər və kəndlərimizin dağıdılması Azərbaycan xalqının iradəsini qıra bilmədi. Biz hər gün irəli gedirdik, hər gün qələbə qazanırdıq, hər gün yeni uğurlar haqqında məlumatlar daxil olurdu. 44 gün ərzində bir gün də olmayıb ki, biz geriyə addım ataq. Ancaq mənfur düşmən, - baxmayaraq ki, onların əlində əlverişli mövqelər var idi, ərazinin relyefi onlara böyük üstünlük təşkil edirdi, baxmayaraq ki, 30 il ərzində 5-6 xətdən ibarət müdafiə istehkamları qurulmuşdu, - geri getməyə məcbur olmuşdur. 44 günlük müharibə zamanı Azərbaycan Silahlı Qüvvələrində bir nəfər də olsun fərari olmamışdır. Ancaq Ermənistan ordusunda 10 mindən çox fərari olmuşdur. Biz şəhidlərimizlə, qazilərimizlə fəxr edirik, eyni zamanda, Vətən müharibəsində qəhrəmanlıq göstərmiş hərbçilərimizlə, əsgər-zabitlərimizlə fəxr edirik. Onların qəhrəmanlığı, onların fədakarlığı heç vaxt unudulmayacaq. Biz bütün dünyaya göstərdik ki, Azərbaycan xalqı böyük xalqdır, Azərbaycan xalqı bu ədalətsizliklə heç vaxt barışmaq fikrində deyildi.

44 günlük Vətən müharibəsi milli iradə, milli ruh, milli ləyaqət təntənəsi idi. Biz Qələbəni döyüş meydanında qazandıq. 300-dən çox şəhər və kənd döyüş meydanında işğaldan azad edildi. Biz qan tökərək, şəhidlər verərək bu Qələbəni əldə etdik və düşməni məcbur etdik ki, bizim qabağımızda diz çöksün və kapitulyasiya aktına imza atsın. Həmin düşmən ki, 30 il ərzində bizə meydan oxuyurdu, 30 il ərzində Azərbaycan xalqının şərəf və ləyaqətini tapdalamağa çalışırdı. Azğınlaşmış, harınlamış, quduzlaşmış, qudurmuş düşmən bizim qabağımızda diz çökdü, ağ bayraq qaldırdı, təslim oldu və məcbur oldu ki, noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktına imza atsın. Bunun nəticəsində yüzlərlə şəhər və kənd bir güllə atmadan, bir şəhid vermədən geri qaytarıldı.

Beləliklə, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi. Biz müharibəni hərbi-siyasi yollarla həll etdik, müharibə arxada qaldı, Dağlıq Qarabağ münaqişəsi də tarixdə qaldı. Azərbaycanda "Dağlıq Qarabağ" adlı inzibati ərazi mövcud deyil və əgər kimsə "Dağlıq Qarabağ" adlı ölünü diriltmək istəyirsə, onu öz ərazisində diriltsin, öz ərazisində "Dağlıq Qarabağ" adlı qurum yaratsın, respublika yaratsın, cəmiyyət yaratsın. Biz də onu tanıyarıq, ancaq Azərbaycanda yox! Bu məsələ öz həllini tapdı. Bunu mən deyirəm - Azərbaycanın Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı. Hər kəs bu sözlərlə hesablaşmalıdır və hesablaşacaqdır.

44 gün ərzində bizə ən böyük dəstək verən qardaş Türkiyəyə bu gün - Anım Günündə öz dərin təşəkkürümü bildirmək istəyirəm. Qardaş Türkiyə və qardaş türk xalqı müharibənin ilk saatlarından Azərbaycanla həmrəy oldular, Azərbaycana öz dəstəyini göstərdilər. Türkiyə rəhbərliyi və əziz qardaşım Prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən verilən açıqlamalar bizə çox böyük siyasi dəstək oldu, bizə əlavə güc verdi və biz bunu heç vaxt unutmayacağıq. 44 günlük Vətən müharibəsi bütün dünyaya Türkiyə-Azərbaycan birliyini bir daha göstərdi.

Bütün digər ölkələr ki, bizə siyasi dəstək göstərdilər, biz onlara da minnətdarıq. Bilirəm ki, xarici ölkələrdə yaşayan milyonlarla azərbaycanlının da ürəyi tarixi Vətəni ilə bir döyünürdü, onlar hər gün gedən döyüşləri izləyirdilər, bizim uğurlarımıza sevinirdilər. Onu da bildirməliyəm ki, 44 gün ərzində və ondan sonra, hətta bu günə qədər mən minlərlə məktub alıram. Həm Azərbaycan vətəndaşlarından, həm dünya azərbaycanlılarından, həm də bizə dost olan müxtəlif ölkələrin vətəndaşlarından dəstək məktubları alıram, həmrəylik məktubları alıram. Müharibədən bir il keçməsinə baxmayaraq, artıq bütün beynəlxalq aləm bizim Qələbəmizlə razılaşıb, bunu qəbul edib. Bu gün bölgədə, o cümlədən Azərbaycan-Ermənistan münasibətlərində gündəliyi formalaşdıran tərəf də Azərbaycandır.

44 gün ərzində biz təkcə öz ərazi bütövlüyümüzü bərpa etmədik, təkcə düşməni torpağımızdan qovmadıq, təkcə milli ləyaqətimizi bərpa etmədik, biz erməni faşizminin başını əzdik. Bu gün azad edilmiş torpaqlara gələn hər bir insan erməni vəhşiliyinin təzahürlərini öz gözləri ilə görür. Bizim bütün şəhərlərimiz yerlə-yeksan edilib, bütün tarixi abidələrimiz, məscidlərimiz ermənilər tərəfindən ya tam dağıdılıb, ya da təhqir olunub. 67 məsciddən 65-i tamamilə dağıdılıb, qalan yarıdağılmış məscidlərdə mənfur düşmən bizi təhqir etmək üçün, bütün dünya müsəlmanlarını təhqir etmək üçün heyvan saxlayırdı, inək, donuz saxlayırdı. Mən əminəm ki, dünya müsəlmanları buna adekvat reaksiya verəcəklər. Mən bir çox müsəlman ölkələrindən bu məsələ ilə bağlı məktublar alıram. Biz işğal dövründəki erməni vəhşiliyi ilə bağlı, erməni faşizmi ilə bağlı əməli işlər aparırıq, bütün dünyanı məlumatlandırırıq və məlumatlandıracağıq. Ona görə də bizim Qələbəmiz, qeyd etdiyim kimi, erməni faşizmi üzərində əldə edilmiş Qələbədir.

Ermənistanda hakimiyyət dəyişikliyi olur və olubdur, ancaq düşmənin xisləti dəyişmir. Ermənistanda tüğyan edən azərbaycanofobiya, islamofobiya psixi xəstəlik dərəcəsinə çatmışdır. Azərbaycanlılara qarşı olan nifrət orada rəsmi ideologiya kimi bərqərar edilib. Əks təqdirdə, bu qədər vəhşilik törədilməzdi. Azad edilmiş torpaqlara hər gələn insan dəhşətə gəlir ki, bunu törədən insan deyil. Mən hətta deyə bilərəm ki, bunu törədən heyvan da deyil. Bunu törədən azğınlaşmış, quduzlaşmış, azərbaycanofob kütlədir, qəbilədir. Buna başqa ad vermək olmaz və bütün dünya bunu görməlidir. Ermənistanın havadarları bunu görməlidirlər. Görmək istəməsələr də, görməlidirlər və görəcəklər, biz göstərəcəyik, bütün dünyaya göstərəcəyik ki, biz hansı bəlanın dərsini verdik, biz bölgəmizi hansı bəladan xilas etdik. 30 il ərzində bizim bütün tarixi abidələrimizi, milli sərvətlərimizi, təbii resurslarımızı talayan, dağıdan düşmənə dərs verilməli idi, yoxsa yox?! Buna baxmayaraq, müharibədən əvvəl mən dəfələrlə demişdim ki, əgər Ermənistan rəhbərliyi öz xoşu ilə, beynəlxalq hüququn norma və prinsiplərinə riayət edərək torpaqlarımızdan çıxarsa, müharibə təbii ki, istisna ediləcəkdir. Müharibə dövründə də mən bunu dəfələrlə demişəm. Demişəm ki, Ermənistan rəhbərliyi bizə tarix versin, hansı gündə hansı torpağımızdan çıxır və biz müharibəni dayandırmağa hazırıq. Ancaq bunu etmədilər. 44 gündən sonra - artıq Ermənistan ordusunun beli qırılandan, biz alınmaz qala sayılan Şuşanı və ardınca 70-dən çox kəndi işğalçılardan azad edəndən sonra düşmən məcbur qalıb təslim olub. Bu dərs əbədi dərsdir, bunu heç kim yaddan çıxarmasın!

Erməni faşizmi məhv edilib, ancaq onun təzahürləri görünməkdədir. Bu, çox təhlükəli tendensiyadır, ilk növbədə, Ermənistan dövləti üçün. Mən bunu demişəm, bu gün Anım Günündə şəhidlərimizin əziz xatirəsi önündə bir daha deyirəm, əgər biz görsək ki, erməni faşizmi baş qaldırır, əgər biz görsək ki, xalqımıza, dövlətimizə yeni təhlükə mənbəyi yaranır, heç tərəddüd etmədən erməni faşizminin başını bir daha əzəcəyik. Bunu hər kəs bilsin! Müharibənin və Qələbənin rəmzi olan "Dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın!

Əziz həmvətənlər, Anım Günündə bütün şəhidlərimizin xatirəsi qarşısında, Birinci və İkinci Qarabağ müharibələrinin şəhidlərinin ruhu qarşısında bir daha baş əyir, onlara Allahdan rəhmət diləyirəm. Onların yaxınlarına, qohumlarına deyirəm ki, mən demişdim, onların qanı yerdə qalmayacaq və qalmadı. Biz onların qanını aldıq! Mən demişdim ki, biz onların qisasını döyüş meydanında alacağıq, belə də oldu. Bu Qələbəni bizə bəxş edən qəhrəman əsgər və zabitlərimiz bizim qürur mənbəyimizdir. Onların qəhrəmanlığı, onların şücaəti, fədakarlığı artıq dastana çevrilib.

Biz bundan sonra qalib ölkə, müzəffər xalq kimi yaşayacağıq və azad edilmiş torpaqları quracağıq, bərpa edəcəyik. O torpaqlara artıq həyat qayıdır, insanlar qayıdır. Bu qayıdışı ən qısa müddət ərzində təmin etmək bu gün bizim başlıca vəzifəmizdir. Öz müraciətimi Qələbəmizin ayrılmaz hissəsi olan sözlərlə tamamlamaq istəyirəm: Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət ediblər



*Sentyabrın 27-də - Anım Günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabana gələrək müasir müstəqil dövlətimizin memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.*

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım Ulu Öndərin abidəsi önünə gül dəstələri qoyaraq xatirəsini ehtiramla anıblar.



# Müdafiə Nazirliyinin rəhbərliyi Fəxri xiyabanı və İkinci Şəhidlər xiyabanını ziyarət edib

*Vətən müharibəsinin ildönümü münasibətilə sentyabrın 27-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin rəhbər heyəti Fəxri xiyabanı və İkinci Şəhidlər xiyabanını ziyarət edib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyularaq Ulu Öndərin xatirəsi hörmət və ehtiramla yad edilib.



Sonra Müdafiə Nazirliyinin rəhbərliyi İkinci Şəhidlər xiyabanını ziyarət edib.

Ölkəmizin müstəqilliyi və ərazi bütövlüyünün təmin olunması uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib və ruhlarına dualar oxunub, məzarları ziyarət edilərək üzərlərinə gül dəstələri düzülüb.

Ziyarət zamanı mətbuata müsahibə verən Müdafiə naziri vətəndaşların müraciətlərini dinləyib və onların həlli istiqamətində müvafiq göstərişlər verib.







# "Dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın!

Respublikamızın hər yerində olduğu kimi, Azərbaycan Ordusunun birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində də 27 sentyabr - Anım Günü ilə bağlı silsilə tədbirlər həyata keçirilir. Şəhidlər xiyabanları ziyarət olunur, qazilər cəbhə xatirələrini şəxsi heyətlə bölüşür, əbədiyaşar şəhidlərimizin qanı çilənən işğaldan azad olunan ərazilərimizdə gənc əsgərlər onların qəhrəmanlıq ənənələrini davam etdirməyə, qanla suvarılan müqəddəs torpaqlarımızın keşiyində bundan sonra da mərdliklə durmağa and içirlər.

Bu fikirləri Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, Vətən müharibəsi iştirakçısı, polkovnik Abdulla Qurbani AZƏRTAC-a açıqlamasında deyib.

Polkovnik Abdulla Qurbani bildirib ki, bu gün bütün xalqımız kimi Azərbaycan Ordusunun əsgər və zabitləri də Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Anım Günü ilə əlaqədar xalqa müraciətini böyük diqqətlə dinləyib. Bu müraciət hərbi qulluqçularımızın döyüş ruhunu, vətənpərvərlik hissini daha da yüksəldib. İkinci Qarabağ müharibəsini bizim şanlı tariximiz adlandıran dövlətimizin başçısının "Düşməni məcbur etdik ki, bizim qabağımızda diz çöksün və kapitulyasiya aktına imza atsın" sözləri hər bir Vətən əsgərinə nə qədər qürurverici anlar yaşadıbsa, 44 gün ərzində bir gün də olsun geriyə addım atmayan igid oğullarımızda özünə və gücünə inam hissini də bir o qədər artırıb.

Azərbaycan əsgəri fəxr edir ki, şəhidlərimizin qanı yerdə qalmayıb, onların qisası, intiqamı yenilməz, mübariz Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə döyüş meydanlarında alınıb. Şəhidlərimizin xatirəsi qəlbimizdə əbədi yaşayacaq.

"Dövlətimizin başçısının xalqa müraciətində dediyi hər bir fikir, hər bir söz düşmən təxribatlarının, onların mövqelərimizə hücum cəhdlərinin qarşısını mərdliklə və qətiyyətlə alan Vətən əsgərinin qəlbinə hərarət, qoluna güc, dizinə təpər verir. Qalib döyüşçülərimiz iftixar hissi keçirirlər ki, düşmənlərimizin torpaqlarımızdan qovulmasında, beynəlxalq hüququn, milli ləyaqətimizin bərpa edilməsində, Azərbaycan xalqının müzəffər xalq, Azərbaycan dövlətinin qalib dövlət kimi yaşamasında onun müstəsna xidmətlərini Azərbaycan Prezidenti həmişə yüksək qiymətləndirdiyi kimi Anım Günündə də yüksək dəyərləndirib.

Müzəffər Ali Baş Komandanın "Bu Qələbəni bizə bəxş edən qəhrəman əsgər və zabitlərimiz bizim qürur mənbəyimizdir. Onların qəhrəmanlığı, onların şücaəti, fədakarlığı artıq dastana çevrilib" fikirləri Azərbaycan əsgəri ölkə rəhbərinin onların xidmətinə verdiyi ən yüksək mükafat, təltif kimi qarşılayıb.

27 sentyabr - Anım Günündə Azərbaycan Ordusunda keçirilən bütün tədbirlərin iştirakçılarının düşmənlərimizə və onların havadarlarına isə marışı isə Müzəffər Ali Baş Komandan İlham Əliyevin xalqa ünvanlanan müraciətində qətiyyətlə dediyi cəsarətli fikirlərdir: "Bunu hər kəs bilsin! Müharibənin və Qələbənin rəmzi olan "Dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın!", - polkovnik Abdulla Qurbani deyib.

# Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə ehtiram əlaməti olaraq Bakıda yürüş keçirilib

(Əvvəli 1-ci səhifədə)



Neftçilər prospektindən başlayan yürüş Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən bu gün təməli qoyulan Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər muzeyinədək davam edib. Yürüşdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin və Bakı qarnizonunda yerləşən hərbi hissələrin 3000 nəfərdən çox kursant və hərbi qulluqçusu iştirak edib.

Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təxribatlarına cavab olaraq 2020-ci il sentyabrın 27-dən başlayan Vətən müharibəsi zamanı xalqımız işğal altındakı torpaqlarımızın azad edilməsi uğrunda dəmir yumruq kimi birləşərək dövlətimizin düşmənə layiqli cavab verməsinə nail oldu. Xalqımız Vətənin müdafiəsi və torpaqlarımızın düşmən işğalından azad edilməsi uğrunda birliyin gücünü bütün dünyaya nümayiş etdirdi. Azərbaycana, onun xalqına layiqli övlad olmağa, daim Vətənin keşiyində cəsarətlə dayanmağa and içən gənc kursant və hərbçilər ərazi bütövlüyümüz uğrunda şəhid olan soydaşlarımızı dərin ehtiramla anır, Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun tarixi zəfərini şərəflə xatırlayırlar.



Qeyd edək ki, 44 günlük Vətən müharibəsi zamanı 2907 nəfər şəhid olub, 7 nəfər itkin düşüb, Ermənistanın dinc əhaliyə qarşı cinayətləri nəticəsində həlak olan 94 mülki şəxsə şəhid statusu verilib.

Düşmənin hədəf aldığı Gəncə şəhərinin, Ağdam, Ağcabədi, Bərdə, Füzuli, Goranboy, Tərtər rayonlarının dinc sakinləri əzizlərini, evlərini itirsələr də ən ağır günlərində Vətən uğrunda əzmkarlıq və birlik nümayiş etdiriblər.

44 günlük Vətən müharibəsində ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi, haqq və ədalətin bərpası naminə Azərbaycanda əsrlər boyu sülh və əmin-amanlıq şəraitində yaşayan müxtəlif millətlərin və dinlərin təmsilçiləri iştirak ediblər. Qarabağ müharibəsi Azərbaycan cəmiyyətinin fərqli dini və etnik-milli mənsubiyyətinə baxmayaraq həmrəy olduğunu bir daha nümayiş etdirdi. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu İkinci Qarabağ müharibəsində bizə zəfər sevincini yaşatdı və Azərbaycanın qürur tarixini yazdı.

Vətən müharibəsi Azərbaycan gənclərinə torpaq, Vətən sevgisinin nə qədər böyük olduğunu bir daha nümayiş etdirdi, xalqımız Ali Baş Komandan İlham Əliyevin ətrafında yumruq kimi birləşdi. "Dəmir yumruq" hərbi əməliyyatı zamanı Ordumuz düşmənin 30 ilə yaxın müddətdə qurduğu istehkamları, müdafiə xətlərini qəhrəmancasına yararaq irəlilədi.

Anım Günündə Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şəhid olan əsgər və zabitlərimizin, mülki vətəndaşlarımızın xatirəsinə həsr olunmuş silsilə tədbirlər keçirilib.

Şəhidlərimizin əziz xatirəsi Azərbaycanda fəaliyyət göstərən dini məbədlərdə - Heydər məscidində, Təzəpir məscidində, "Jen Mironosits" pravoslav kafedral kilsəsində, Bakının Avropa Aşkenazi Yəhudi Sinaqoqunda, Ağdam Cümə məscidində, Kəlbəcərdəki Xudavəng məbədində, Laçındakı Ağoğlan məbədində, Şuşadakı Yuxarı Gövhər Ağa məscidində və digər məscidlərdə, kilsələrdə, sinaqoqlarda dərin ehtiramla yad edilib, ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçmiş Vətən övladlarının ruhuna dualar oxunub, dini ayinlər icra olunub, bölgəmizdə və bütövlükdə dünyada əbədi sülhün bərqərar olması üçün dualar oxunub.

Vaxtilə işğal altında olan, düşmən tərəfindən viran edilən torpaqlarımızda müzəffər Azərbaycan Ordusunun tarixi Qələbəsi sayəsində həyat yenidən canlanır, həmin ərazilərə insanlarımızın qayıtması üçün şərait yaradılır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakı şəhəri, 8 Noyabr prospektində Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər Muzeyinin təməlqoyma mərasimində iştirak etdilər.



Dövlətimizin başçısı və birinci xanım Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin təməlini qoydular.

Təməlqoyma mərasimindən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Xatırladaq ki, Prezident İlham Əliyevin 2020-ci il dekabrın 3-də imzaladığı Sərəncamda, Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması və ictimaiyyətə nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakı şəhərində Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər Muzeyinin yaradılması tapşırılmışdı.

Ötən müddət ərzində Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər Muzeyinin layihəsi hazırlanıb. Layihəyə əsasən, kompleksin ərazisində torpaqlarımızın azad olunması uğrunda tarixi Qələbəyə gedən yolu, Vətən müharibəsində qəhrəmancasına döyüşmüş əsgər və zabitlərimizin, bütün şəhidlərimizin xatirəsini yaşatmaq məqsədilə muzeyin yaradılması nəzərdə tutulur. Muzey kompleksində Vətən müharibəsi şəhidlərinin hər birinin adı həkk olunacaq, burada toplanacaq eksponatlar ərazilərimizin azadlığı uğrunda mübarizə aparan əsgər və zabitlərin igidliyini, xalqın əzmini bir daha nümayiş etdirəcək. Kompleks park ilə əhatə olunacaq.

Yerli vaxtla saat 12:00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olundu.

Təməlqoyma mərasimindən sonra Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Dənizkənarı bulvar ərazisinə gələrək qəhrəman şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.

Xəzər dənizinin sahil sularında sıralanan hərbi gəmilərindən fasiləsiz fit səsi verildi, yaylım atəşi açıldı.

# Şuşa şəhərində Vətən müharibəsinin ildönümü münasibətilə anım tədbiri keçirilib





Vətən müharibəsinin ildönümü ilə bağlı Şuşa şəhərində anım tədbiri keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Anım Günü ilə əlaqədar keçirilən tədbirdə torpaqlarımızın suverenliyi və ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, şəhidlərin xatirəsinə yaylım atəşi açılıb, hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Tədbirdə çıxış edənlər Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun keçdiyi şərəfli döyüş yolundan, Zəfərin qazanılmasında hərbçilərimizin göstərdiyi qəhrəmanlıq və şücaət nümunələrindən danışıblar.

Mərasimin sonunda Müdafiə Nazirliyinin və Daxili Qoşunların şəxsi heyəti Şuşa şəhərinin mərkəzi küçələrində təntənəli yürüş keçirib.

# Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub





Türkiyə Respublikası Milli müdafiə nazirinin müavini Muhsin Derenin rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə işgüzar səfəri başlayıb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, sentyabrın 27-də Türkiyə nümayəndə heyəti Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edərək üzərinə gül dəstələri düzüb. Qonaqlar, həmçinin Şəhidlər xiyabanı və Türk şəhidliyində də olublar.

Sonra türkiyəli heyət Müdafiə Nazirliyinə gəlib.

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Muhsin Derenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

General-polkovnik Zakir Həsənov ölkələrimiz arasında münasibətlərin dostluq və qardaşlıq üzərində qurulduğunu xatırladaraq Azərbaycanın müdafiə qüdrətinin artırılması məqsədilə hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində Türkiyə ilə əməkdaşlığın genişləndirildiyini və bunun bölgədəki sabitliyi təmin edən mühüm amillərdən olduğunu bildirib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin komandanlığı altında Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı şanlı Qələbənin Azərbaycan xalqı üçün tarixi əhəmiyyətini xüsusi vurğulayan nazir qardaş Türkiyənin göstərdiyi dəstəyə görə öz minnətdarlığını bildirib.

Türkiyənin Milli müdafiə nazirinin müavini ölkələrimiz arasında hərbi sahədə birgə sənayenin inkişaf etdirilməsinin, qarşılıqlı təcrübə mübadiləsinin vacibliyini qeyd edib.

Görüşdə Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının inkişaf perspektivləri və əsas istiqamətləri müzakirə edilib, iki ölkə ordularının müxtəlif qoşun növlərinin cəlb edilməsi ilə birgə hərbi təlimlərin keçirilməsi, həmçinin maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Sonra Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri ilə Azərbaycan Ordusu ilə uğurlu əməkdaşlığa görə Türkiyə Respublikası Milli müdafiə nazirinin müavini Muhsin Dere Azərbaycan Respublikasının "Hərbi əməkdaşlıq sahəsində xidmətlərə görə" medalı ilə təltif olunub.

# Müdafiə naziri Rusiya sülhməramlılarının yeni komandanı ilə görüşüb



*Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan ərazisində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlı qüvvələrinin yeni komandanı general-leytenant Gennadi Anaşkin ilə görüşüb.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, görüşdə Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazisindəki son vəziyyət müzakirə edilib.

Qeyd edək ki, görüşdə general-leytenant Rüstəm Muradov da iştirak edib.

# Azərbaycan Ordusunun Baş Qərargah rəisi Türkiyənin Milli müdafiə nazirinin müavini ilə görüşüb



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, sentyabrın 27-də Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-leytenant Kərim Vəliyev ölkəmizdə işgüzar səfərdə olan Türkiyə Respublikası Milli müdafiə nazirinin müavini Muhsin Derenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüşdə hərbi, hərbi-texniki, hərbi təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi məsələləri müzakirə edilib. Tərəflər hər iki ölkənin orduları arasında dostluq və qardaşlıq münasibətləri üzərində qurulan əməkdaşlığın uğurla inkişaf etdiyini vurğulayıblar.

Bölgədə təhlükəsizliyin təmin edilməsi məqsədilə Türkiyə ilə birgə keçirilən təlimlərin əhəmiyyəti xüsusi qeyd edilib və bundan sonra da bu istiqamətdə fəaliyyətlərin davam etdirilməsinin vacibliyi bildirilib.

Görüşdə tərəflər hərbi sahədə birgə sənayenin inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıblar.

# Yaralara məlhəm olan tarix

Şərəf və ədalətlə yazılan tarix əsl nümunədir. Azərbaycanın qazandığı böyük qələbənin başlamasından bir il ötür. 27 sentyabr adi günlərdən biri deyil. Bu, neçə-neçə həsrətin, göz yaşının, torpaq nisgilinin sonu deməkdir. Daha azərbaycanlıların düşmən işğalı altında torpaqları yoxdur.

1992-1993-cü illərin qırğınları, talanları, torpaq həsrəti qəlbimizdə və yaddaşımızda silinməz acı xatirələrlə qalmışdı. Bütün bu hadisələr ədəbiyyatdan da yan keçmir. Yazarların əsas mövzusu Vətən həsrətinə, ayrılığa həsr olunur. Artıq şərdən, zülmdən bəhs edən ədəbiyyat mövzularını yeniliyə kökləmək zamanı çoxdan gəlib çatmışdı. 2016-cı ilin Aprel döyüşləri neçə-neçə insanın həsrətini sonlandırmağı bacardı. Həmin döyüşlər Vətən müharibəsi zəfərinin qaçılmaz olduğunun müjdəçisi idi. Cocuq Mərcanlı, Lələtəpədən sonra Qarabağ torpaqları böyük qayıdışın həsrətiylə alışıb-yanırdı. 28 il gözləri yolda qalıb hər açılan atəş səsinə, kinə, nifrətə doymuş, sinəsi qəm dağarcığı olmuşdu. Ancaq bütün bu dəhşətlərə 27 sentyabrda Ali Baş Komandanın döyüş əmri verməsilə son qoyuldu.

Səfərbərlik xidmətinin önü könüllü yazılmaq istəyən insanlarla aşıb-daşırdı. Qarabağ qaziləri yaralarının əldə edəcəkləri zəfər məlhəmiylə sağalacağına inanaraq yenidən orada iştirak etməyə təlesirdilər. Qadınlar arxa cəbhədə hər döyüşçünün öz oğlu, qardaşı olduğunu düşünüb dəstək olmağa çalışırdılar. Məktəblilər evlərinin eyvanından bayraqlar asaraq orduya hörmətin, inamın sonsuzluğunu göstərirdilər. Hər yan əlvan rənglərlə psixoloji və mənəvi birliyin vəhdətini simvolizə etməyi bacarmışdı. Müəllimlərin əsas dərs mövzusu Vətən müharibəsinə köklənmişdi. Yalnız bir amal vardı: "Təqvimdən qaranı, tarixdən yaranı silmək".

"Dəmir yumruq" zəfəri yalnız Ordumuzun deyil, qardaşlığımızın qələbəsi oldu. Bayraqdarlı səmalar düşməni və ona arxa olanları qırıb təmizləməyə nail oldu. Türkiyə bu müddət ərzində mənəvi dəstəyiylə arxa duraraq zəfərimizə ortaq oldu. Bu qələbə həm də qardaşlığın zəferidir.

**Hüsniyyə İDRİSOVA**

# Azərbaycan ilə Türkiyə arasında hərbi-texniki təminat məsələləri müzakirə edilib



Sentyabrın 27-də Azərbaycan Respublikasının Müdafiə nazirinin müavini - Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanov ölkəmizdə işgüzar səfərdə olan Türkiyə Respublikası Milli müdafiə nazirinin müavini Muhsin Derenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, görüşdə hər iki ölkənin orduları arasında dostluq və qardaşlıq münasibətləri üzərində qurulan əməkdaşlığın uğurla inkişaf etdiyi bildirilib. Tərəflər maddi-texniki təminatın yaxşılaşdırılması istiqamətində birgə əməkdaşlığın əhəmiyyətini xüsusi vurğulayıb və bu istiqamətdə görüləcək işləri ətraflı müzakirə ediblər.

Görüşdə Türkiyənin müdafiə sənayesinin müasir texnologiyalar əsasında istehsal etdiyi ən yeni silahların və digər hərbi vasitələrin Azərbaycan Ordusunun silahlanmasına daxil edilməsi perspektivləri müzakirə edilib.

## Naxçıvanda “Sarsılmaz qardaşlıq-2021” Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimi davam edir



Naxçıvanda "Sarsılmaz qardaşlıq-2021" Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimi davam edir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təlimin ssenarisinə əsasən, hərbi qərar qəbuletmə prosesinə uyğun əməliyyatların birgə planlaşdırılması üzrə tədbirlər həyata keçirilir.

Qoşunlar arasında qarşılıqlı fəaliyyətin uzlaşmasına nail olmaq üçün idarəetmə məntəqələrində qərargahlar tərəfindən verilən tapşırıqlar xəritə üzərində icra olunur.

Qərargahlarla ərazinin müxtəlif istiqamətlərində döyüş tapşırıqları dəqiqləşdirilərək birləşmə və hissələr arasında maket üzərində qarşılıqlı əlaqə təşkil edilir.

# Şəhid övladları daim diqqət mərkəzindədir

Vətən müharibəsi Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun şücaəti, qəhrəmanlığı sayəsində Böyük Qələbə ilə başa çatdı. Bu müqəddəs yolda şəhadətə qovuşan şəhidlərimizin Vətən sevgisi xalqımıza ölçüyəgəlməz qürur, fəxr hissi yaşatmaqdadır. Azərbaycan xalqı daim milli kimliyinə sadiqliyi və vətənpərvərliyi ilə seçilib. Daxildə yaranan bu sevgini hər bir insan əməlləri və gördüyü işlərlə də sübut etməlidir. Xalqımıza məxsus vətənsevərlik, xeyirxahlıq, mərhəmətlilik kimi ali keyfiyyətləri, saf mənəvi dəyərləri şəxsiyyətlərində cəmləyən bu vətəndaşlarımızın əməlləri heç zaman unudulmayacaq.

Müdafiə Nazirliyinin rəhbərliyinin tapşırığına əsasən hərbi hissələrin şəxsi heyəti yeni tədris ilinin başlanması ilə əlaqədar şəhid ailələrinə baş çəkib və görüş zamanı şəhidlərin məktəbli övladlarına dərs ləvazimatları hədiyyə olunub.



Polkovnik-leytenant Ramazan Orucov bildirdi ki, şəhidlər heç zaman ölmür, onların ruhu əbədi olaraq xalqın qəlbində yaşayır. İnsan ilk növbədə Vətən üçün yaşayıb nəcib hisslər, gözəl arzular, yüksək məslək və amallar uğrunda mübarizə aparmalıdır. Özünü Vətəninə, xalqına, millətinə borclu bilməyən adamlar mənasız bir həyat yaşayırlar. Məsləksiz, amalsız bir həyat əsl insan ömrü sayıla bilməz. Bu baxımdan şəhidlərimizin qısa, amma şərəfli ömür yolu hər kəsə örnəkdir. Vətəndaşlıq borcunu dərindən dərk edənlər, bu borcu ürəklərində əbədi bir amal kimi yaşadanlar həmişə həyat mübarizəsindən şərəflə çıxır, əməlləri ilə ürəklərdə yaşayır, ölümlərindən sonra da ölümsüzlüyə, əbədiyyətə qovuşurlar.

Polkovnik-leytenant Ramazan Orucov qeyd edib ki, düşmən qarşısında mərdliklə dayanıb, Vətənimizi, torpaqlarımızı azad edərkən şəhid olan igid oğullarımızın övladlarını öz balalarımız kimi sinəmizə çəkmək, onların qayğısına qalmaq hər bir azərbaycanlının borcudur.

Zabit R.Orucov məktəbliləri yeni tədris ilinə başlamaları münasibətilə təbrik edib, onlara dərslərində uğurlar diləyib.

Mayor Elmar İsmayılov, kapitan Hilal Eminov şəhid övladlarının atalarının igidliklərinə görə qürur duymalı olduqlarını, Azərbaycan xalqının hər zaman onların qəhrəmanlıqlarını ehtiramla xatırlayacağını vurğulayıblar.

Şəhid ailələri göstərilən diqqətə görə dövlət başçısına, Müdafiə Nazirliyinin rəhbərliyinə təşəkkürlərini bildiriblər.

**Baş leytenant**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**



# Hərbi təyyarəçilərimiz “Texnofest-2021” festivalında növbəti uçuşu nümayiş etdiriblər

Türkiyə Respublikasının İstanbul şəhərində keçirilən "Texnofest-2021" festivalının son günündə hərbi təyyarəçimizin növbəti uçuşu nümayiş olunub.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, uçuşdan əvvəl Vətən müharibəsi zamanı şəhid olan hərbi qulluqçularımızın əziz xatirəsi yad edilib, Azərbaycan Respublikasının şanlı bayrağı dalğalandırılıb.

Hərbi təyyarəçimizin İstanbul səmasında çətin pilotaj manevrlərlə nümunəvi uçuşu aviaşounu izləyən qonaqların marağına səbəb olub.



Qeyd edək ki, Atatürk Beynəlxalq Hava limanında keçirilən "Texnofest-2021" aviasiya, kosmos və texnologiyalar festivalının dördüncü ilində Azərbaycan Hərbi Hava Qüvvələrinin 2 ədəd MiQ-29 döyüş təyyarəsi müxtəlif günlərdə nümunəvi uçuşlar ediblər.

## Azərbaycan Ordusunda çağırışçıların hərbi hissələr üzrə bölgüsü prosesi keçirilib

Müdafiə nazirinin müvafiq əmrinə əsasən yaradılan, Nazirliyin baş idarə və idarə rəisləri, həmçinin Azərbaycan Ordusunun Baş Qərargahının məsul vəzifəli zabitlərindən ibarət komissiyanın sentyabrın 24-də toplantısı keçirilib.

Toplantıda Azərbaycan Ordusunun hərbi hissələrinin komplektləşdirilməsi məqsədilə hərbi xidmətə yeni gələn çağırışçıların bölgüsü məsələsi müzakirə edilib.

Ali Baş Komandanın müvafiq sərəncamına əsasən, "2021-ci ilin oktyabr ayında hərbi hissələrə gənc heyətin göndərilməsi planına" uyğun olaraq çağırışçıların bölgüsü elektron qaydada xüsusi kompüter proqramı vasitəsilə həyata keçirilib.

Çağırışçıların hərbi hissələr üzrə bölüşdürülməsi əks-ərazi prinsipi nəzərə alınmaqla tam şəffaf şəkildə icra edilib.

Qeyd edək ki, komissiyanın işinə Dövlət Təhlükəsizliyi Xidməti və Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin nümayəndələri də cəlb olunub.

## Anım Günü ilə bağlı hərbi gəmilərdən yaylım atəşləri açılıb



Ötən ilin 27 sentyabrından başlayan və ordumuzun parlaq qələbəsi ilə başa çatan 44 günlük Vətən müharibəsinin ildönümü ilə bağlı anım tədbirləri keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Anım Günü ilə əlaqədar keçirilən tədbirlər çərçivəsində torpaqlarımızın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçənlərin xatirəsi yad edilib.

Şəhidlərimizə ehtiram əlaməti olaraq sentyabrın 27-də Hərbi Qənimətlər Parkı ilə üzbəüz ərazidəki Bakı buxtasında Hərbi Dəniz Qüvvələrinə məxsus gəmilərin artilleriya qurğularından üç dəfə yaylım atəşi açılıb.

# Əlahiddə Ümumqoşun Orduda şəhid ailələrinə müxtəlif orden və medallar təqdim edilib





Əlahiddə Ümumqoşun Orduda Vətən müharibəsinin başlanmasının ildönümü ilə əlaqədar keçirilən anım tədbirində bir qrup şəhid ailəsinin üzvü iştirak edib. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müvafiq Sərəncamları ilə şücaət göstərərək şəhid olmuş bir qrup vətən övladının ailə üzvlərinə müxtəlif orden və medallar təqdim edilib.

Orden və medalların təqdim edilməsi mərasimində əvvəlcə şəhidlərimizin əziz xatirəsi yad edilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirdə çıxış edən Əlahiddə Ümumqoşun Ordu komandanı general-polkovnik Kərəm Mustafayev vurğulayıb ki, Azərbaycanımızın bütövlüyü və müdafiəsi uğrunda gedən döyüşlərdə Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçularından yaralanan və şəhidlik zirvəsinə ucalanlar olub. Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xəttin uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün müharibə veteranlarına və şəhid ailələrinə diqqət və qayğı sosial siyasətin əsas istiqamət kimi müəyyənləşdirilib. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov tərəfindən hərbi qulluqçuların, müharibə veteranlarının və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması sahəsində ardıcıl tədbirlər görülür. Müharibə iştirakçılarının təltif edilməsi vətənpərvər insanların fəaliyyətinə dövlətimizin verdiyi yüksək qiymətdir.

Sonra Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin müvafiq Sərəncamları ilə təltif edilmiş bir qrup şəhidin ailə üzvlərinə müxtəlif orden və medallar təqdim edilib.

Şəhid valideynlərindən Habil Məmmədov, İlham Abdullazadə və Aytən Eyvazova dövlətimizə minnətdarlıq edərək müharibə iştirakçılarına, qazilərə və şəhid ailələrinə göstərilən qayğıdan danışıblar.

# Şəhid tabor komandirinin xatirəsi yad edilib





*Müdafiə Nazirliyinin təşkilatçılığı ilə Vətən müharibəsi şəhidi polkovnik-leytenant Rəşad Rəşid oğlu Quliyevin doğum günü münasibəti ilə mərasim keçirilib.*

Nazirliyin, Xətai və Suraxanı rayonları icra hakimiyyətlərinin rəsmiləri, şəhidin ailə üzvləri, təhsil aldığı xüsusi təyinatlı təhsil müəssisələrinin zabit və kursantları, xidmət etdiyi hərbi hissənin hərbi qulluqçuları, Vətən müharibəsi iştirakçıları, qazilər, gənclər, məktəblilər əvvəlcə İkinci Şəhidlər xiyabanında igid zabitin məzarı önünə əklillər qoyaraq xatirəsini ehtiramla yad ediblər.

Respublikamızın ərazi bütövlüyünün qorunması və bərpa olunması, eləcə də torpaqlarımızın işğaldan azad edilməsi uğrunda döyüşlərdə şəhid olanların xatirəsinə bir dəqiqəlik sükut elan edilib, hərbi orkestrin müşayiəti ilə Dövlət Himni ifa olunub.

Polkovnik Abdulla Qurbani 27 sentyabr - Anım Günü ərəfəsində respublikamızın bütün bölgələrində şəhidlərin xatirəsinə silsilə tədbirlərin keçirildiyini qeyd edərək bildirib ki, Vətən müharibəsində şəhadətləri ilə tarix yazan və adları tarixə yazılan igid oğullarımızdan biri də şəhid zabitimiz Rəşad Quliyevdir. O, 23 sentyabr 1983-cü ildə Bakı şəhərində anadan olub. Əslən Quba şəhərindəndir. 2000-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyi, 2004-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini və Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.



Azərbaycan Ordusu sıralarında "leytenant" rütbəsində motoatıcı taqım komandiri vəzifəsindən Müdafiə Nazirliyinin Maddi-Texniki Təminat Baş İdarəsinin baş zabiti vəzifəsinə və "polkovnik-leytenant" hərbi rütbəsinədək yüksəlib.

Nəzərə çatdırılıb ki, Vətən müharibəsinin ilk günündən döyüşlərdə iştirak edən tabor komandiri Rəşad Quliyev tabeliyində olan igid döyüşçülərlə birlikdə Füzuli, Cəbrayıl və Xocavənd rayonlarının yaşayış məntəqələrinin işğaldan azad edilməsi uğrunda hərbi əməliyyatlarda qarşıya qoyulan döyüş tapşırıqlarının yerinə yetirilməsində əsl qəhrəmanlıqlar, şəxsi rəşadət və şücaət nümunələri göstərib.

2020-ci il oktyabrın 7-də şəhidlik zirvəsinə ucalan tabor komandiri həm sağlığında, həm də ölümündən sonra dövlət səviyyəsində yüksək qiymətləndirilib, döyüş orden və medalları ilə təltif olunub.

Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatının sədri tanınmış yazıçı-jurnalist Vüqar Rəhimzadə bir daha Quliyevlər ailəsinə Vətənə Rəşad Rəşid oğlu kimi igid övlad bəxş etdiklərinə görə minnətdarlıq edib və respublikamızın ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunan qəhrəman zabitin həyat və döyüş yolunun bundan sonra da gənclər tərəfindən diqqətlə öyrəniləcəyinə, yeni-yeni Rəşadların yetişəcəyinə əminliyini bildirib.

Xətai rayon İcra Hakimiyyətinin şöbə müdiri Pənah İmanov respublikamızın bütün regionlarında olduğu kimi Xətai rayonunda da Vətən müharibəsi tarixinin təbliği, öyrənilməsi, o cümlədən Vətən müharibəsi şəhidlərinin adlarının əbədiləşdirilməsi istiqamətində xeyli işlər görüldüyünü vurğulayıb.

Vətən Müharibəsi Qəhrəmanı polkovnik Nizami Mövlanov şəhid Rəşad Quliyevlə bağlı xatirələrini bölüşüb.

Nazirliyin əməkdaşı polkovnik Elvin Əzizov Vətən müharibəsi şəhidlərinin hər birinin xatirəsinin əziz tutulduğunu və onların xatirə tədbirlərinin keçirilməsinin bir ənənəyə çevrildiyini deyib.

Vətən müharibəsi qaziləri sevimli komandirlərinin yüksək iradəyə malik olmasından, mənəvi keyfiyyətlərindən danışıb, hər bir əsgəri özünə dost, qardaş bildiyini minnətdarlıqla yada salıblar.

Məktəblilər şəhidlərə həsr olunan şeirlər söyləyiblər.

Şəhid zabitin anası Mətanət Quliyeva göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıq edib, Şuşa şəhərinə səfər təəssüratlarını danışaraq möhtəşəm Zəfərin qazanılmasında şəhid oğlunun da xidmətlərinin olduğuna görə qürur hissi keçirdiyini qeyd edib və gəlini Afət xanımla birlikdə nəvələri Damla ilə İncini şəhid atalarının adına layiq övlad kimi tərbiyə edəcəklərinə söz verib.

Tədbir hərbi orkestrin ifa etdiyi "Qələbə marşı"nın sədaları altında başa çatıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Vətən müharibəsinin başlanmasının ildönümü münasibətilə Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilib

Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, sentyabrın 27-də Vətən müharibəsinin ildönümü ilə əlaqədar Müdafiə Nazirliyinin birlik, birləşmə, hərbi hissə, xüsusi təyinatlı təhsil müəssisələri, mərkəzi və qarnizon zabitlər evlərində şəxsi heyətə vətənpərvərlik nümunələrinin təbliği, onların mənəvi-psixoloji və döyüş ruhunun daha da yüksəldilməsi məqsədilə silsilə tədbirlər keçirilib.

Plana əsasən nazirliyin rəhbərliyi və şəxsi heyət tərəfindən Fəxri xiyaban və Şəhidlər xiyabanları ziyarət olunub, Ulu Öndərin, eləcə də Vətən müharibəsi şəhidlərinin məzarları üzərinə güllər düzülərək xatirələri ehtiramla yad edilib.

Mərasimlərdə əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət Himni səsləndirilib.





Tədbirlərdə Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli ordumuzun qazandığı şanlı qələbənin tarixi əhəmiyyəti, qalib Azərbaycan xalqının qələbədə rolu, döyüş iştirakçılarının igidlik və qəhrəmanlıq nümunələri haqqında ətraflı söhbətlər aparılıb, şəhidlərimizin xatirələrinin yaddaşlarda əbədi yaşayacağından danışılıb.

* * *

Azərbaycan Ordusunun şanlı qələbəsi ilə başa çatan 44 günlük Vətən müharibəsinin ildönümü ilə əlaqədar Xüsusi Təyinatlı Qüvvələrdə anım mərasimi və veteranlarla görüş keçirilib.

Mərasimdə torpaqlarımızın işğaldan azad olunması uğrunda şəhid olanların əziz xatirəsi yad edilib, ruhlarına dualar oxunub, ehsan süfrəsi açılıb. Anım mərasimində Xüsusi Təyinatlı Qüvvələrin komandanı general-leytenant Hikmət Mirzəyev, veteranlar və qazilər iştirak ediblər.

Mərasim iştirakçıları ulu öndər Heydər Əliyevin büstü və Xüsusi Təyinatlı Qüvvələrin xatirə abidəsi qarşısına gül dəstələri qoyublar.

Keçirilən anım tədbirləri ilə yanaşı Xüsusi Təyinatlı Qüvvələr döyüş hazırlığının yüksəldilməsi istiqamətində fəaliyyətlərini davam etdirirlər.

Hazırda da bir çox təlimlər icra edilməkdədir.

* * *

Müdafiə Nazirliyinin dəstəyi və "Əsgərə xatirə kitabı" layihəsinin təşkilatçılığı ilə Qəbələ şəhərində "Anım Günü" tədbiri keçirilib.

Tədbir şəhid ailələrinin, qazilərin, rayon icra hakimiyyəti nümayəndələrinin və rayon ictimaiyyətinin iştirakı ilə Şəhidlər xiyabanının ziyarət olunması ilə başlayıb.

Qəbələ Dövlət Peşə Təhsili mərkəzində Vətən müharibəsi



şəhidlərinin ailə üzvləri və döyüşlərdə yaralanmış qazilərlə Vətən müharibəsinin ildönümü ilə əlaqədar görüş keçirilib.

Tədbirlərdə Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında keçirilən "Dəmir yumruq" əməliyyatı nəticəsində rəşadətli ordumuzun qazandığı şanlı qələbənin tarixi əhəmiyyəti, xalqımızın qələbədə rolu, şəhidlərin və döyüş iştirakçılarının igidlik, qəhrəmanlıq nümunələri haqqında ətraflı söhbətlər aparılıb, şəhidlərimizin yaddaşlarda əbədi yaşayacağından danışılıb.

* * *

Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizə dərin ehtiram əlaməti olaraq Azərbaycan Hərb Tarixi Muzeyində 27 sentyabr - Anım Günü və Vətən müharibəsinin başlanmasının ildönümü ilə əlaqədar olaraq "Zəfər sənindir ancaq Azərbaycan əsgəri!" adlı tədbir keçirildi. Anım tədbirində Müdafiə Nazirliyinin idarə, müəssisə və hərbi hissələrinin, Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun nümayəndələri, şəhidlərin ailə üzvləri və yaxınları, qazilər, Vətən Müharibəsi Qəhrəmanı mayor Mirdamət Bağıyev, ART Accent rəssamlıq məktəbinin müəllim və şagird kollektivi və digər qonaqlar iştirak etdilər.

Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə çıxış edərək Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı tarixi zəfər haqqında geniş məlumat verdi. Muzey rəisi qədirbilən Azərbaycan xalqının şanlı qələbəni bizə yaşadan şəhid və qazilərimizin qəhrəmanlığını heç vaxt unutmayacağını vurğuladı. "44 gün davam edən Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi. Xalqımız öz liderinin - ölkə başçısı, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü, mətinliyini nümayiş etdirdi. Şəhidlərin əziz xatirəsinin anım günündə həm kövrəlir, həm də qürur duyuruq. Allahdan onlara rəhmət, yaxınlarına səbir diləyirik. Öz vətənpərvərliyi, igidliyi, mübarizliyi, rəşadəti ilə zəfər tariximizi qanları ilə yazan mərd oğullarımızın əziz xatirəsi bizim qəlbimizdə daim yaşayır, yaşayacaq. Onların şərəfli həyatı və döyüş yolu gələcək nəsillərə örnək olacaq."

Vətən Müharibəsi Qəhrəmanı mayor Mirdamət Bağıyev çıxış edərək "Dəmir yumruq" əks-hücum əməliyyatlarında Azərbaycan Ordusunun rəşadətindən, düşmən üzərində inamlı qələbəsindən danışdı.

Tədbirdə çıxış edən digər qonaqlar 30 illik işğaldan sonra düşməni darmadağın edərək torpaqlarımızdan qovan rəşadətli Azərbaycan Ordusunun şəxsi heyətinə dərin minnətdarlıqlarını bildirdilər. Cənab Prezidentin 27 sentyabrın - Vətən müharibəsinin başladığı günün Azərbaycan Respublikasında Anım Günü kimi qeyd olunması haqqında sərəncamının şəhid ruhlarına və şəhid doğmalarına ali ehtiramın daha bir göstəricisi olduğunu qeyd etdilər.



Vətən müharibəsinə həsr olunan qısametrajlı sənədli film nümayiş etdirildikdən sonra Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinin hərbi orkestrinin solistləri çavuş Fidan Həmzəyeva və kiçik çavuş Taleh İsmayılovun ifasında hərbi vətənpərvərlik mövzusunda mahnılar səsləndirildi.

Tədbir qonaqların muzeydə şəhidlərin xatirə qalan əşyalarından və hərbi mundirlərindən hazırlanmış stendlərə və ART Accent rəssamlıq məktəbinin şagirdlərinin Vətən müharibəsinə həsr olunan rəsm əsərlərinə baxışı ilə başa çatdı.

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**

Sentyabrın 27-də Cəmşid Naxçıvanski adına Hərbi Liseydə Anım Gününə həsr olunmuş mərasim keçirildi.

Tədbirdə çıxış edən zabit Saday Balayev bu tarixin mahiyyətindən danışaraq vurğuladı ki, ötən ilin 27 sentyabrında başlayan 44 günlük haqq savaşımız cəsur oğullarımızın göstərdiyi hünər nəticəsində Böyük Qələbə ilə başa çatdı. "Bildiyimiz kimi, bu gün Azərbaycan xalqının tarixində qürur günü, anım günüdür. Keçən ilin bu vaxtı erməni silahlı birləşmələri təxribat törətdi və törədilən təxribat nəticəsində hərbi və mülki vətəndaşlarımız həlak oldular. Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi altında, rəşadətli Azərbaycan Ordusunun əks-həmlə əməliyyatı ilə düşmənə cavabı özünü çox gözlətmədi. Əks-hücum əməliyyatı ilə düşmən döyüş meydanında rüsvayçı məğlubiyyətə uğradı. 30 ilə yaxın işğalda olan tarixi torpaqlarımız qısa müddət ərzində düşməndən təmizləndi. Cəsur oğullarımız öz qanları ilə adlarını tarixə qızıl hərflərlə yazdılar. Bizim bu xalqın vətəndaşı olaraq üzərimizə düşən əsas vəzifə odur ki, şəhidlərimizin adlarını daim uca tutaq. Yaşından, vəzifəsindən asılı olmayaraq hər bir Azərbaycan vətəndaşının ürəyi haqq savaşımız boyunca döyüş meydanında Azərbaycan əsgəri ilə birgə döyünürdü. 44 gün davam edən müharibədə bütün dünyaya xalq-dövlət-ordu birliyi nümayiş etdirildi". Zabit, həmçinin bildirib ki, Birinci Qarabağ müharibəsində olduğu kimi, İkinci Qarabağ müharibəsi zamanı da Hərbi Liseyin məzunları böyük hünər və rəşadət nümayiş etdiriblər.

Digər çıxış edənlər qeyd ediblər ki, bugünkü tarix xalqımızın yaddaşında ömürlük həkk olunub. Bildirilib ki, haqq savaşımızda müqəddəs torpaqlarımızın azadlığı uğrunda canından keçən minlərlə Azərbaycan oğlunun göstərdiyi qəhrəmanlıq nümunəsi bütün dünyaya vətənpərvərlik anlayışının bariz nümunəsidir və onların ruhlarını daim uca tutmaq hər bir azərbaycanlının vətəndaşlıq borcudur. Haqq savaşımızda canını və qanını əsirgəməyən oğullarımız sayəsində bu gün əzəli və əbədi torpaqlarımızın işğalına son qoyulub.

**Baş leytenant**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**

Baş redaktor vəzifəsini icra edən kapitan Məhəmməd NƏSİRLİ

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

Növbətçi
Svetlana YUSUBOVA

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 628
Nüsxə 4021